**Azərbaycan Respublikasının**
**Auditorlar Palatası Şurasının**
**2012-ci il 5 oktyabr tarixli 234/4**
**saylı qərarı ilə təsdiq edilmişdir.**

# “AÇIQ HÖKUMƏTİN TƏŞVİQİNƏ DAİR 2012-2015-ci İLLƏR ÜÇÜN MİLLİ FƏALİYYƏT PLANI”NIN VƏ “KORRUPSİYAYA QARŞI MÜBARİZƏYƏ DAİR 2012-2015-ci İLLƏR ÜÇÜN MİLLİ FƏALİYYƏT PLANI”NIN HƏYATA KEÇİRİLMƏSİ İLƏ BAĞLI AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ İŞ PLANI

## I

## AÇIQ HÖKUMƏTİN TƏŞVİQİNƏ DAİR MİLLİ STRATEGİYANIN HƏYATA KEÇİRİLMƏSİ İLƏ BAĞLI AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ İŞ PLANI

### I. (1) İNFORMASİYA ƏLDƏ EDİLMƏSİNİN ASANLAŞDIRILMASI

| | Görüləcək işlər və nəticə indikatorları | Məsul icraçılar | İcra müddəti |
|---|---|---|---|
| 1.1 (1.1) * | Auditorlar Palatasında İnformasiya azadlığı üzrə məsul şəxslərin müəyyən edilməsi, informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarının qəbul edilməsi və bu barədə ictimaiyyətin məlumatlandırılması | Rəhbərlik | 2012-2014-cü illər |

**Qeyd:** Mötərizədəki rəqəmlər Azərbaycan Respublikasi Pezidentinin 5 sentyabr 2012-ci il sərəncami ilə təsdiq edilmiş “Açiq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın və “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın müvafiq bəndlərini göstərir

## II. (2) AUDİTORLAR PALATASININ ÖZ FƏALİYYƏTİ BARƏDƏ İCTİMAİYYƏTƏ MÜNTƏZƏM MƏLUMAT VERİLMƏSİ

| | | | |
|---|---|---|---|
| 2.1 (2.1) * | Auditorlar Palatasının öz fəaliyyəti barədə məlumatların mütəmadi, yenilənmiş əsaslarla internet səhifəsində yerləşdirməsi | Q.Bayramov, R.Ələkbərov (sturktur bölmələri ilə birlikdə) | mütəmadi |
| 2.2 (2.2) * | Auditorlar Palatasının öz fəaliyyəti barədə illik məruzələr tərtib edilməsi və internet səhifələrində açıqlaması | Rəhbərlik, Auditorlar Palatasının Aparatı, sturktur bölmələri ilə birlikdə | hər növbəti ilin I rübünün sonunadək |
| 2.3 (2.3) * | Auditorlar Palatasının öz fəaliyyəti barədə mətbuat konfransları və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər keçirməsi | Rəhbərlik, Auditorlar Palatasının Aparatı, struktur bölmələri ilə birlikdə | İldə 2 dəfədən az olmayaraq |

## III. (4). AUDİTORLAR PALATASININ FƏALİYYƏTİNDƏ İCTİMAİYYƏTİN İŞTİRAKININ GENİŞLƏNDİRİLMƏSİ

| | | | |
|---|---|---|---|
| 3.1 (4.1) * | Auditorlar Palatası tərəfindən ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi, ictimai dinləmələrin keçirilməsi | Rəhbərlik, Elmi-metodik məsələlər üzrə müşavir, struktur bölmələri | mütəmadi |

## IV (6) MALİYYƏ NƏZARƏTİNİ HƏYATA KEÇİRƏN ORQANLARIN FƏALİYYƏTİNDƏ ŞƏFFAFLIĞIN ARTIRILMASI

| | | | |
|---|---|---|---|
| 4.1 (6.1) * | Maliyyə nəzarəti üzrə daha təkmil hüquqi baza təmin etmək üçün maliyyə nəzarəti haqqında qanun layihəsinin hazırlanmasında iştirak etmək | Rəhbərlik, Elmi-metodik məsələlər üzrə müşavir, Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi | 2013-2014-cü illər |
| 4.2 (6.3) * | Auditor xidmətində informasiya texnologiyalarının tətbiqi və elektron audit (“e-audit”) sisteminin yaradılması | İşçi qrupu | 2013-2014-cü illər |
| 4.3 (6.5) * | Təsərrüfat subyektlərinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq tərtib edilmiş maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsində iştirak etmək | İşçi qrupu | 2013-2014-cü illər |
| 4.4 (6.6) * | Bələdiyyələrin maliyyə hesabatlarının vaxtında təsdiq olunmasına nəzarət mexanizmlərinə və prosedurlarına dair təkliflər hazırlanması | Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi Auditin təşkili və təhlili idarəsi | 2013-cü il |

II

**KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ MİLLİ STRATEGİYANIN HƏYATA KEÇİRİLMƏSİ İLƏ BAĞLI AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ İŞ PLANI**

## I. (2) ƏRİZƏ VƏ ŞİKAYƏTLƏRƏ BAXILMASI İŞİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

| | **Görüləcək işlər və nəticə indikatorları** | **Məsul icraçılar** | **İcra müddəti** |
|---|---|---|---|
| 5.1 (2.5) * | Auditorlar Palatasının rəhbərliyi tərəfindən mütəmadi olaraq vətəndaşların qəbulunun təşkili | Rəhbərlik<br>Sədrin müşaviri | 2012-2015-ci illər |
| 5.2 (2.6) * | Ərizə və şikayətlərin elektron qaydada qəbulu və rəsmi cavablandırılması işinin təkmilləşdirilməsi | Auditorlar Palatasının aparatı,<br>Sədrin müşaviri, | 2013 |

## II. (9). MARAQLAR TOQQUŞMASININ QARŞISININ ALINMASI VƏ MALİYYƏ XARAKTERLİ MƏLUMATLAR HAQQINDA BƏYANNAMƏLƏRİN TƏQDİM EDİLMƏSİ

| | | | |
|---|---|---|---|
| 6.1 (9.2) * | Auditor xidmətində maraqlar toqquşmasının qarşısının alınması üzrə tədbirlərin işlənib hazırlanması və treninqlərin təşkili | Elmi-metodik məsələlər üzrə müşavir, Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi, Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsi | 2013-2015-ci illər |

## III (10). ETİK DAVRANIŞ QAYDALARININ TƏKMİLLƏŞDİRİLMƏSİ

| | | | |
|---|---|---|---|
| 7.1 (10.2) * | Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunması vəziyyəti barədə illik hesabatın hazırlanması (hesabatda aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və tətbiq edilmiş intizam tənbehi tədbirləri göstərilməklə) | Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi, Auditorların Peşə Etikası Komitəsi, Auditorlar Palatasının Keyfiyyətə nəzarət Komitəsi, Elmi-metodik məsələlər üzrə müşavir | 2012-2015-ci illər |
| 7.2 (10.3) * | Auditorlar tərəfindən Etik davranış qaydalarının pozulması ilə bağlı daxil olmuş şikayətlərin effektiv araşdırılması mexanizmlərinin müəyyən edilməsi | Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi, Auditorların Peşə Etikası Komitəsi,sədrin müşaviri | 2013 |
| 7.3 (10.4) * | Auditorlar Palatasının internet saytında etik məsələlər üzrə xüsusi bölmənin yaradılması (qeyri-etik davranış barədə elektron şikayət etmə mexanizmi, etik qaydalar, etik hesabatlar və s.) | Auditorlar Palatasının Aparatı, Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi, sədrin müşaviri | 2013-cü il |

## IV (11). BƏLƏDİYYƏLƏRİN FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

| | | | |
|---|---|---|---|
| 8.1 (11.2) * | 11.2 Bələdiyyə qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə məsələləri üzrə tədris kurslarının, treninqlərin və seminarların təşkilində iştirak | Elmi-metodik məsələlər üzrə müşavir, Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi, Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsi | mütəmadi |

## V (12.) SAHİBKARLIQ FƏALİYYƏTİ ÜÇÜN ƏLVERİŞLİ MÜHİTİN TƏKMİLLƏŞDİRİLMƏSİ

| | | | |
|---|---|---|---|
| 9.1 (12.2) * | Təsərrüfat subyektlərində aparılan auditlərin vahid məlumat reyestrinin yaradılması, o cümlədən reyestrə informasiya ötürülməsinin avtomatlaşdırılması | Auditorlat Palatasının Aparatı, Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi | 2013-2014-cü illər |
| 9.2 (12.5) * | Aparılan auditlərlə bağlı risk qiymətləndirilməsi sisteminin yaradılması və yoxlamaların risklərin idarə edilməsi əsasında təyin edilməsi | Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri, Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi,Auditin təşkili və təhlili idarəsi, Auditorlar Palatasının Keyfiyyətə nəzarət Komitəsi, | mütəmadi |
| 9.3 (12.7) * | Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən nağd hesablaşmaların həcminin azaldılması, nağdsız hesablaşmaların həcminin artırılması üçün tədbirlər görülməsi | Maliyyə və təsərrüfat idarəsi, Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi, Auditin təşkili və təhlili idarəsi | 2013-2014-cü illər |
| 9.4 | Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən verilən hesabatların elektron qaydada qəbul olunmasının təkmilləşdirilməsi | Palatanın Aparatı, Sədrin müşaviri,Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi | 2013-ci il |

## VI. (13) AUDİT XİDMƏTLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

| | | | |
|---|---|---|---|
| 10.1 (13.1) * | Müstəqil audit sahəsində beynəlxalq standartların tətbiqi ilə əlaqədar tədbirlərin davam etdirilməsi | Rəhbərlik, işçi qrupu, Keyfiyyətə nəzarət Komitəsi, | 2012-2015-ci illər |
| 10.2 (13.2) * | Beynəlxalq təcrübə nəzərə alınmaqla Auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) layihəsinin hazırlanması | Rəhbərlik, işçi qrupu, struktur bölmələri | 2012-2013-cü illər |
| 10.3 (13.3) * | Məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi ilə bağlı mexanizmlərin müəyyən edilməsi üçün Azərbaycan Respublikasının Vergilər naziriliyi ilə birgə tədbirlər görülməsi | Rəhbərlik, Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri, Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi | 2012-2013-cü illər |
| 10.4 (13.4) * | Daxili audit haqqında qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması | Rəhbərlik, işçi qrupu, Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi | 2012-2013-cü illər |

## VII (16). LİSENZİYA VƏ İCAZƏ VERMƏ, SERTİFİKATLAŞMA İŞİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

| | | | |
|---|---|---|---|
| 11.1 (16.2) * | Auditor xidməti göstərmək hüququ verən Lisenziya və icazələrin verilməsi ilə əlaqədar elektron xidmətlərin təşkil olunması | Auditorlar Palatasının Aparatı, Auditin təşkili və təhlili idarəsi, Sədrin müşaviri | 2013-2014-cü illər |

## VIII. ( 27) IX. (26) KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN İNKİŞAF ETDİRİLMƏSİ

| | | | |
|---|---|---|---|
| 12.1 (27.1) * | Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq və regional təşkilatlarla qarşılıqlı fəaliyyət, müxtəlif beynəlxalq proqram və layihələrdə iştirak, habelə bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq orqanları ilə audit sahəsində qarşılıqlı əməkdaşlığın davam etdirilməsi | Rəhbərlik, Auditorlar Palatasının Aparatı, Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsi | 2012-2015-ci illər |
| 12.2 (27.2) * | Beynəlxalq təşkilatlar tərəfindən korrupsiyaya qarşı mübarizə istiqamətində auditlə bağlı verilmiş tövsiyyələrlə əlaqədar zəruri tədbirlərin davam etdirilməsi | Rəhbərlik, Auditorlar Palatasının Aparatı, Müvafiq Struktur bölmələri | 2012-2015-ci illər |

## IX (28) KORRUPSİYAYA QARŞI MÜBARİZƏ İLƏ BAĞLI MAARİFLƏNDİRMƏ

| | | | |
|---|---|---|---|
| 13.1 (28.2) * | Auditorlar Palatası tərəfindən öz fəaliyyətində korrupsiyaya qarşı mübarizə ilə əlaqədar televiziya və radio proqramlarında xüsusi verilişlərin və debatların təşkil edilməsi | Rəhbərlik, Auditorlar Palatasının Aparatı, Müvafiq Struktur bölmələri | mütəmadi |
| 13.2 (28.3) * | Auditor xidmətinə ictimai etimadın artırılması məqsədi ilə auditorların fəaliyyəti ilə bağlı təbliğat işinin təşkil edilməsi | Auditorlar Palatasının Aparatı, struktur bölmələri | mütəmadi |
| 13.3 (28.4) * | Tədris proqramlarında korrupsiya ilə mübarizə haqqında tədris kurslarının nəzərdə tutulması | Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri, Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsi | mütəmadi |

| | | | |
|---|---|---|---|
| 13.4 (28.6) * | Korrupsiyaya qarşı mübarizə sahəsində auditin roluna dair bukletlərin, yaddaş kitabçalarının və digər maarifləndirici materialların nəşri və əhali arasında paylanması | Auditorlar Palatasının Aparatı, Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri, işçi qrupu, Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsi, | mütəmadi |
| 13.5 | Sərbəst auditorların və auditor təşkilatlarının korrupsiyaya qarşı mübarizə üzrə maarifləndirməsi və bu sahədə sorğuların keçirilməsi | Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsi, digər struktur bölmələri ilə birlikdə | Hər il |